Unibank
Sənin Bankın

-OUT-06085-2026

07.05.2026

TÖVSİYƏ MƏKTUBU

"UNİBANK" ASC Komersiya Bankı olaraq bildiririk ki, FM Consulting MMC ilə əməkdaşlığımız çərçivəsində şirkət özünü peşəkar, etibarlı və yüksək xidmət keyfiyyətinə malik tərəfdaş kimi göstərmişdir.

FM Consulting MMC tərəfindən həyata keçirilən qiymətləndirmə işləri müasir yanaşmalar, bazar analizləri və beynəlxalq qiymətləndirmə standartları əsasında hazırlanaraq yüksək keyfiyyətlə təqdim edilmişdir. Şirkətin əməkdaşları tapşırıqlara məsuliyyətli yanaşmış, operativ qərarvermə və düzgün koordinasiya bacarıqları ilə seçilmişdir.

Əməkdaşlıq müddətində FM Consulting MMC aşağıdakı xüsusiyyətləri ilə fərqlənmişdir:

- təqdim olunan hesabatların peşəkar və əsaslandırılmış şəkildə hazırlanması;
- müraciətlərə çevik və operativ reaksiya verilməsi;
- xidmət prosesində yüksək korporativ etikaya riayət olunması;
- qiymətləndirmə prosesində obyektiv və şəffaf yanaşma;
- müxtəlif həcmli layihələrin vaxtında və keyfiyyətlə icra edilməsi.

Şirkətin göstərdiyi xidmətlər əməkdaşlıq etdiyimiz müddət ərzində etibarlı və stabil nəticələr vermiş, FM Consulting MMC-ni öz sahəsində peşəkar təşkilatlardan biri kimi dəyərləndirməyimizə əsas yaratmışdır.

Bununla əlaqədar olaraq, "UNİBANK" ASC Komersiya Bankı FM Consulting MMC şirkətini qiymətləndirmə və konsaltinq xidmətləri sahəsində etibarlı tərəfdaş kimi tövsiyə edir.

Hörmətlə,

İdarə Heyəti Sədri v.m.i.e **Heybət Qədirov**

KOMMERSİYA BANKI UNİBANK COMMERCIAL BANK

Azərbaycan, Bakı, AZ1014
Rəşid Behbudov küç., 55
Tel.: +994 12 541 3333
Faks: +994 12 498 0953
www.unibank.az
bank@unibank.az